ISSN:2791-9099

Yayına Geliş Tarihi / Article Arrival Date
21/12/2022
Yayıma Kabul Tarihi / Date of Acceptance
28/02/2023

Researches on Multidisiplinary Aproaches
Multidisipliner Akademik Yaklaşım Araştırmaları 2023, 3(1): 28-34

# Qarabağ Regionunda Mədəni Turizm Destinasiyasının Perspektiv İnkişafı[1]

**Derleme Makale**

**Rəna Sultanova / Prof.**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu, rena-sp@mail.ru

**Chinara Imamverdiyeva / Dr.**
Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi, chinara.imamverdiyeva@mail.ru

### Özet

Karabağ bölgesi, büyüleyici doğasının yanı sıra zengin maddi ve manevi değerlere sahip Azerbaycan bölgelerinden biridir. Böylece bölgenin zengin mirası - ulusal müzik, lezzetli yemekler, eski ve farklı gelenekleri, modern çağa ulaşmış tarihi-mimari anıtları kültür turizminin gelişimi için büyük bir kaynak potansiyelidir. 30 yılı aşkın süredir kuşatma altında olan Karabağ, kardeş Türkiye Cumhuriyeti'nin desteği, doğru, planlı ve güçlü devlet politikası ve yiğit evlatların kahramanca mücadelesi sayesinde artık Azerbaycan'ın özgür ülkesidir. Modern zamanlarda, Azerbaycan'ın ekonomik kalkınma politikasında, Karabağ bölgesindeki birçok alanın yanı sıra turizm sektörünün geliştirilmesi ve genel olarak istikrarlı ve sürdürülebilir ekonomik büyümenin sağlanması öncelikli yönlerdir. Bu makalede, Karabağ'ın turizm kaynaklarının değerlendirilmesi, bölgede bir kültür turizmi destinasyonunun oluşumu, bölgenin turizm pazarında bilinen ve turist çeken sürdürülebilir bir yere dönüşmesinin beklentileri, ana yönleri ele alınmış, makalenin sonunda öneriler not edilmiştir.

**Anahtar Kelimeler:** Karabağ Bölgesi, Turizm Destinasyonu, Kültür Turizmi, Miras Turizmi, Sürdürülebilir Kalkınma.
**JEL Kodları:** Z32

# Perspective Development of Cultural Tourism Destination in Karabakh Region

### Abstract

Karabakh region is one of the regions of Azerbaijan, which has rich tangible and intangible resources as well as its fascinating nature. Thus, the rich heritage of the region - national music, delicious food, ancient and different traditions, historical-architectural monuments that have reached the modern age are a great resource potential for the development of cultural tourism. Karabakh, which has been under siege for more than 30 years, is now the free country of Azerbaijan thanks to the support of the brotherly Republic of Turkey, the correct, planned and strong state policy, and the heroic struggle of valiant sons. In modern times, in the economic development policy of Azerbaijan, the development of the tourism sector, as well as many areas in the Karabakh region, and the achievement of stable and sustainable economic growth in general are priority directions. In this article, the evaluation of the tourism resources of Karabakh, the formation of a cultural tourism destination in the region, the expectations of the region's transformation into a sustainable place known in the tourism market and attracting tourists, the main aspects are discussed, and suggestions are noted at the end of the article.

**Keywords:** Karabakh Region, Tourism Destination, Cultural Tourism, Heritage Tourism, Sustainable Development
**JEL Codes:** Z32

[1] Çalışmanın özeti "*IV. Uluslararası Turizm ve Kültürel Miras Kongresi 16-20 Kasım 2022, Bodrum*" kongresinde sunulmuştur.

## Giriş

Kiçik Qafqaz dağları ilə əhatə olunmuş Qarabağ Azərbaycanın ən qədim tarixi məkanlarından biridir. Tarixi Azərbaycan torpaqları olan Qarabağ ərazisində bu gün müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı ucalır.

Qarabağ ölkəmizin təbii, tarixi-mədəni, irs resursları ilə zəngin olan bölgələrindəndir. Qədim insan məskənlərindən biri olan dünyaca məşhur, Füzuli rayonu ərazisindəki Azıx mağarasından tapılan ibtidai insana məxsus, 350-400 min il yaşı olan alt çənə sümüyü, müxtəlif əmək alətləri bölgənin qədim tarixi xüsusiyyətlərini əks etdirən məkanlardadır. Tarixdə XVIII əsr Qarabağın inkişaf etdiyi ən mühüm dövrlərdən biri kimi əks olunmuşdur. 1805-ci ildə imzalanmış Kürəkçay müqaviləsi Qarabağ xanlığının Rusiyanın tərkibinə daxil olmasına, zamanla bu ərazilərdə xristianlaşma siyasətinin gücləndirilməsinə, ermənilərin Qarabağ ərazisinə köçürülməsinə səbəb olmuşdur. 1828-ci ildə rusların köçürmə siyasətinin nəticəsi olaraq Qarabağ xanlığının və İrəvanın əsas hissəsində ermənilər yaşamağa başladılar. 1991-ci ildən Azərbaycanın ərazi bütövlüyünün parçalanmasına nail olmaq üçün xarici qüvvələrin dəstəyi ilə Qarabağ regionunun işğalına başlanıldı. 2020-ci ildə isə 30 ilə yaxın işğal altında olan Qarabağ torpaqları Azərbaycan Republikasının Ali Baş Komandanın rəhbəriliyi, ordumuzun yüksək peşəkarlığı və şücaəti ilə düşmən tapdağından azad olundu.

Artıq iki ildir ki, ölkəmizdə azad olunmuş torpaqların bərpası, burada quruculuq işlərinin aparılması, iqtisadi inkişafın təmini məqsədilə müvafiq fərmanlar imzalanmış, investisiyalar yatırılmağa başlanılmışdır. Qarabağ regionunda turizm sektorunun inkişaf etdirilməsi digər iqtisadi sahələrlə əlaqəli nəzərdə tutulmuş, prioritet istiqamət kimi qeyd edilmişdir. Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edən Qarabağ bölgəsinin inkişafı, müharibədən sonrakı dövrdə quruculuq işlərinin sürətləndirilməsi, infrastukturun yaradılması, davamlı iqtisadi inkişafın formalaşması baxımından Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci il tarixli fərmanı ilə Qarabağ iqtisadi rayonu yaradılmışdır (https://president.az/az/articles, 04.11.2022)

## Qarabağ regionun mədəni turizm potensialı

Ölkə Prezidenti öz çıxışlarında tez-tez Qarabağ regionunda iqtisadiyyatın dayanıqlı inkişafının zəruriliyini, həmçinin turizm potensialından istifadə ilə bağlı məsələləri vurğulamışdır. Qarabağ regionu müxtəlif turizm növlərinin inkişafı baxımından zəngin resurslara malik ərazidir. Regionun zəngin mineral su ehtiyatları sanatoriya-kurort komplekslərinin tikilməsinə, sağlamlıq turizminin inkişafına, füsunkar təbiət, coğrafi mövqeyi, yüksək dağlıq əraziləri qış-yay turizm komplekslərinin yaradılmasına, tarixi memarlıq abidələrinin, muzeylərin, adət-ənənələrin, bəzi dağıdılmış mədəniyyət abidələrinin və müharibə qalıqlarının açıq muzey formasında təqdimatı isə mədəni turizmin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Regionda mədəni turizmin inkişafı üçün mədəni turizm potensialının qiymətlədirilməsinin aşağıdakı istiqamətlər üzrə aparılması məqsədəuyğundur:

1. Qarabağın dağıdılmış tarixi-memarlıq abidələri
2. Qarabağ sənətkarlığı

## Qarabağın dağıdılmış tarixi-memarlıq abidələri

Hərbi təcavüz nəticəsində Qarabağın tarixi məkanları talan edilmiş, əksər hissəsi ya dağıdılmış, ya saxtalaşdırılmış ya da tamamilə məhv edilmişdir. Belə ki, Azıx, Tağlar mağaraları, Üzərliktəpə kruqanları hərbi məqsədlərlə istifadə edilmiş, məzarüstü abidələr, Qafqaz Albaniyasına məxsus abidələr dağıdılmışdır. Tədqiqatlar göstərir ki, Qarabağ ərazisində 300-dən çox tarixi-memarlıq abidələri mövcud

olmuş, onlardan 13-ü dünya əhəmiyyətli, 202-si isə ölkə əhəmiyyətli, 30-u yerli əhəmiyyətli tarixi tikililərdir (Cahangir, 2021:178).

Məhv edilmiş memarlıq nümunələrinin böyük əksəriyyəti dini abidələrdir. Belə ki, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan ərazilərində 15-dən çox məscid, XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ümumilikdə Qarabağ ərazisindəki 67 məsciddən 4-ü qismən dağıdılmış və bərpa prosesi üçün yararlıdır.

Qarabağ ərazisində qədim kompleks tikililəri - Laçın rayonunda Ağoğlan monastrı (IX əsr), Kəlbəcər rayonu ərazisində Xotavəng (V-VII əsrlər), Xocavənd rayonunda yerləşən Amaras (XIII əsr), Ağdərə rayonu ərazisindəki Qandzasar kompleksi (VII əsr) mövcuddur ki, həmin tarixi məkanlar Qafqaz Albaniyasının dini memarlıq abidələridir.

Qarabağ regionunda hal-hazırda bərpası mümkün olan tarixi-memarlıq abidələrinin siyahıya salınıb, bərpa edilməsi qarşıya qoyulmuş əsas istiqamətlərdəndir. Belə ki, Şuşada yerləşən Xan qızı Natəvanın bulağı (XVIII əsr), Aşağı və Yuxarı Gövhərağa məscidləri (1768), Xurşudbanu Natəvanın evi (XVIII), Şuşa qalasının divarları, görkəmli şair M.P.Vaqifin məqbərəsi, XVIII əsrə aid karvansaray, Saatlı məscidi (XVIII əsr), Hamamqabağı məhəlləsi məscidi, tarixi Çölqala məhəlləsi, Hacı Yusifli məscidi, Qarabəyim ağanın qəsri, Bülbülün ev muzeyi, Qafqaz müəllimlər seminariyasının binası, Xan evi, Pənah xanın kitabxanası, Xan Şüşinskinin və Üzeyir Hacıbəyovun evi, Zöhrabbəyovların mülkü və s. abidələrdən bir çoxunun bərpasına başlanılmışdır (https://files.preslib.az/projects/shusha/az, 06.11.2022).

Qarabağda qədim insan məskənləri olan Azıx və Tağlar mağarasından başqa daş dövründə yaşamış insanların məskəni olan Şuşa mağara düşərgəsini də nümnun göstərmək olar. Dəniz səviyyəsindən 1400 m yüksəklikdə yerləşən Qarabağ mağarasının uzunluğu 120 m, eni 20 m.-ə qədərdir. Mağaranın giriş hissəsində orta əsrlərə aid olan daşdan qalın istehkamlar mövcuddur. Belə məkanların çoxluğu və Şuşa şəhərinə yaxın yerləşməsi mədəni turizmin inkişafı baxımından qiymətli turizm resusrlarıdır (Qarabağın ermənilər yaşamış olduğu ərazilərində Azərbaycanın dağıntılara və saxtalaşdırmalara məruz qalmış abidələri,15.02.2022).

Həmçinin, Qubadlı ərazisində Bərguşad çayı sahilində paeolit dövünə aid mağara, Məzr və Başarat kəndində yerləşən alban məbədləri (VI-VII əsrlər), Dəmirçilər türbəsi ( XIV əsr), Xələc kəndində yerləşən XV əsrə aid məscid, Gürcülü türbəsi (XVII əsr), Boynəkər kəndində yerləşən XVIII əsrə aid türbə, Mərmər kəndi ərazisindəki məscid (XVIII əsr), 1867-ci ildə tikilmiş Əliquluuşağı körpüsü, Qubadlı rayon Tarix-Diyarşunaslıq muzeyi (XX əsr), orta əsrlərə aid qoç qəbir daşları və s. tarixi məkanların və Bərgüşad mehmanxanasının ( XX əsr) bərpası mədəni turizm baxımından əhəmiyyətlidir.

Qeyd olunanlarla yanaşı, Laçın Diyarşunaslıq muzeyi, Seyidlər kəndində yerləşən XIX əsrə aid Birtağlı körpü, Pircahan kəndində yerləşən orta əsrlərə aid Məşədi Mehralı körpüsü, Cicimli kəndində yerləşən Məlik Əldər ( XIV əsr) və Kar Kümbəz ( XV-XVI əsr) türbələri, Güləbird kəndində yerləşən orta əsrlərə aid Sultanbud türbəsi, daş fiqurlar və Mağara qalası (XVəsr), Zabux qayaları, Həmzə Sultan sarayı (Hüsülü kəndi-1761), Ağoğlan məbədi (V-IX əsrlər), Dəmirovlu pir məbədi (Qarıqışlaq kəndi-XI əsr), Sadınlar kəndində yerləşən alban abidəsi (XVI-XVII), Minkənd kəndi Abadxeyir dərəsi ərazisində yerləşən ikitağlı və birtağlı körpülər (XVII əsr), Piçənis kəndi ərazisindəki məbəd (XIV əsr), Hoçaz mağarası (V əsr) Laçın rayonun məşhur tarixi tikililəridir və hal-hazırda böyük əksəriyyətinin bərpaya ehtiyacı var.

Kəlbəcər ərazisində isə Vəng kəndində yerləşən Gəncəsər (1238) və Xudavəng (VI-VII əsrlər) alban monastrları, “Müqəddəs Yaqub” alban kilsəsi (Kolataq kəndi-635-ci il), paleolit dövrünə aid Zar mağara düşərgəsi, ilk və orta tunc dövrünə aid qayaüstü təsvirlər, Lök qalası (Qanlıkənd XIII-XIV əsr), Kəlbəcər tunel yolu (XX əsr), Kəlbəcər Tarix-Diyarşunaslıq muzeyi ( XX əsr), daş qoç və at fiqurları, son orta əsrlərə aid daş körpü (Soyuqbulaq kəndi) bölgənin əsas mədəni turizm resursları hesab edilir.

Ağdamda Şahbulaq qalası (XVIII əsr), Qutlu Musa oğlu türbəsi (Xaçın Dərbətli kəndi, 1314), Ağdam Cümə məscidi (1868), Ağdam çörək muzeyi, Xan Şuşinski adına Ağdam Muğam Məktəbi, Pənahəli xanın türbəsi və imarəti (XVIII əsr), Xanoğlu türbəsi (XIX əsr), Xurşudbanu Natəvanın qəbirüstü abidəsinin yenidən bərpası mədəni turizmin inkişafı baxımından öz səmərəsini göstərəcəkdir (https://www.virtualkarabakh.az/az/project, 07.11.2022)

## Qarabağ sənətkarlığı

Qarabağ regionu tarixi-memarlıq abidələri ilə yanaşı, xalçaçılıq və sənətkarlıq sahələri üzrə qədim tarixə malikdir. Qarabağ xalçaçılıq məktəbi XVIII əsrdə Azərbaycanın “incisi” adlandırılan qədim Şuşada cəmlənmişdir. Şuşa Türkiyə, İran, Ərəbistan, Hindistan, Rusiya ilə karvan ticarət yollarının qovşağında yerləşdiyi və həmçinin regionun sosial-iqtisadi həyatında mühüm yer tutduğu üçün bədii və texnoloji cəhətdən yüksək səviyyəyə çatmışdır. Qarabağda həm xovlu, həm də xovsuz ( palaz, cecim, kilim, zili, şəddə və s.) xalçalar toxunurdu. Qarabağ xalçalarının rəng palitrası zəngin olduğu üçün toxunan xalçaların rəngi parlaq olurdu. Qarabağ xalçalarının əsas kompozisiyası kətəbələr, anagüllər, göl və ya kiçik xonçalardan təşkil olunurdu. Qarabağın dağlıq ərazilərində Şuşa ilə yanaşı, Daşbulaq, Dovşanlı, Çanaqçı, Tuğ və s. kəndlərində də xalçalar toxunurdu, xalçaların ölçüsü 2-20 kv.m aralığında dəyişirdi. Qasımuşağı, Malıbəyli, Bəhmənli, Xanlıq, Balıq, Buynuz, Çələbi kimi məşhur xalçaları ilə tanınan Qarabağ bölgəsində XIX əsrin axırlarında “Atlı-itli”, “Maralli-ceyranlı”, “Baxçada güllər”, “Bulud” və s. kompozisiyalı xalçalar toxunurdu (Azərbaycan xalçaları, 2011:19). Bu gün ölkəmizdə xalçaçılıq sənətinin qorunması və təbliğinə xüsusi diqqət ayrılır, Qarabağ xalça toxunma sənətinin qorunması, gənc nəsilə öyrədilməsi və təbliği baxımından “Azərxalça” ASC-nin Tərtər, Goranboy filialları fəaliyyət göstərir.

XX əsrin əvvəllərində Qarabağda xalçaçılıqla yanaşı, əhali 40-dan çox müxtəlif sənətkarlıq sahələri ilə məşğul olurdu. Yerli əhali ağac, taxta və dəmirdən məişətdə istifadə edilən əşyalar hazırlayır, ağacişləmə və dəmirçilik inkişaf edirdi. Sənət sahələri arasında zərgərlik xüsusilə fərqlənir, yüksək əyyarlı qızıl və gümüşdən qəlibkarlıq üsulu ilə müxtəlif kəmərlər, yaxalıqlar və boyunbağılar hazırlanırdı.

Eyni zamanda Qarabağ öz atları ilə dünyada məşhur idi və atçılığın inkişafı regionda nalbəndliyin inkişafına səbəb olmuşdur. Bölgədə daş yataqlarının və karxanaların olması daşişləmə sənətinin heykəltaraşlıq, oymakarlıq, şəbəkəçilik kimi sahələrinin inkişafını sürətləndirmişdir. Qarabağda həmçinin ipəkçilik, papaqçılıq, misgərlik, boyaqçılıq, kürkçülük, başmaqçılıq və s. kimi sahələr inkişaf etmişdir (Nazim, 2014: 46).

## Qarabağ regionunun turizm destinasiyası baxımından təhlili

Turizm sektorunda destinasiyaların inkişaf etdirilməsi öyrənilərkən əsas diqqət edilən məsələlərdən biri 7 A modeli çərçivəsində seçilən ərazinin destinasiya məkanına çevrilmə imkanlarının araşdırılmasıdır. Qarabağ regionunda turizm destinasiyasının inkişaf perspektivlərinin tədqiqi baxımından 7 A modelinin tətbiqi məqsədəuyğundur. Belə ki, 7 A modelinin adı destinasiyanın təşkili üçün zəruri olan yeddi elementin ingilis dilində baş hərflərindən formalaşmış və aşağıdakı kimi qruplaşdırılmışdır:

1. *Cəlbedici məkanların mövcudluğu (attractions):* İstənilən turizm məkanında olduğu kimi Qarabağ regionunun destinasiyaya çevrilməsində vacib şərtlərdən biri məkanın turistlər üçün maraqlı və görməli

yerlərlə zəngin olmasıdır. Təbiəti, iqlimi, mineral bulaqları, tarixi-memarlığı baxımından Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağ mədəni turizm destinasiyasının formalaşması üçün zəngin mədəni turizm resurslarına malikdir.

2. *Destinasiyanın turistlər üçün əlçatanlığı (accessibility):*Destinasiyanın əlçatanlığı dedikdə, həmin məkana çatmaq üçün mövcud imkanlar, nəqliyyat, yol infrastrukturu nəzərdə tutulur. Qarabağ regionunun uzun illər işğal altında olması, diqqətdən kənarda saxlanması, yalnız hərbi məqsədlər üçün istifadə edilməsi yol infrastrukturunu tamamilə yararsız vəziyyətə salmışdır. Artıq iki ildir ki, bu ərazilərdə yol infrastrukturunun formalaşması üçün bərpa işləri sürətli şəkildə həyata keçirilir, bu məqsədlə Türkiyə Respublikasının beş şirkəti ilə əməkdaşlıq davam etdirilir. Qarabağ regionunda beynəlxalq hava nəqliyyatının inkişafı baxımından Füzuli, Zəngilan hava limanlarının açılışı həyata keçirilmiş, 2024-cü ildə isə Laçın aeraportunun açılışı nəzərdə tutulmuşdur. İşğaldan azad edilmiş ərazilərdə turizm siyasətinin həyata keçirilməsi ilə bağlı “Yolumuz Ağdama”, “Yolumuz Füzuliyə”, “Yolumuz Xocavəndə” adlı turizm marşutları hazırlanmış, yaxın müddətdə istifadəsi planlaşdırılmışdır. “Yolumuz Qarabağa” adlı layihə çəriçivəsində Bakı-Şuşa, Bakı-Ağdam, Bərdə-Ağdam istiqamətində 2022-ci ildən marşurutlar təşkil olunmuşdur. Nəqliyyat infrastrukturunun inkişafı baxımından dövlət dəstəyi siyasəti həyata keçirilir, investoraların sektora cəlb edilməsinə xüsusi diqqət ayrılır. Belə ki, regionun Avropa və Mərkəzi Asiya arasında logistika qovşağına çevrilməsi regional dövlət siyasətinin əsas hədəflərindən biridir.

3. *Xidmətlər və avadanlıqlarla təminat (amenities/ancillary service):* Destinasiyada turist məmnunluğunun formalaşması üçün səfər edilən məkanda bank, poçt xidmətləri, turist polisi, mobil şəbəkə və internet bağlantısı, turizm informasiya mərkəzlərinin mövcudluğu və xidmət sahələri, bələdçi fəaliyyətləri ilə təminat, xarici dil biliyi olan kadrların mövcudluğu və s. mühüm istiqamətlərdir. Qarabağ regionunun dirçəlməsi, müxtəlif fəaliyyət sahələrinin bərpası, dayanıqlı və davamlı iqtisadi inkişaf və bərpa prosesinin həyata keçirilməsi üçün 2021-ci ildə Qarabağ Dirçəliş Fondu yaradıldı. Eyni zamanda regionda qısa müddətdə innovativ maliyyə-bank xidmətlərinin həyata keçirilməsi istiqamətində yeni fəaliyyətlər nəzərdə tutulmuşdur. Qarabağ regionunda rəqəmsal texnologiyanın tətbiq imkanlarından istifadə günün əsas tələbidir.

4. *Fəaliyyətlər (activities):* Turist səfər etdiyi destinasiyada istirahətini maraqlı keçirmək üçün müxtəlif fəaliyyət sahələrində aktiv iştirak etməyə maraqlı ola bilər. Fəaliyyət növləri fiziki fəaliyyətlərin təbiət və mədəniyyətlə bağlılığı əsasında formalaşdırılır. Qarabağda qış turizmi, mədəni turizm, dağ-macəra, ekoturizm fəaliyyətlərinin inkişafı üçün potensialın qiymətləndirilməsi və müvafiq infrastrukturun formalaşdırılması zəruridir.

5. *Orjinallıq (authenticity):* Turizm destinasiyalarını bir-birindən fərqləndirən xüsusiyyətlərdən biri də həmin məkanın, göstərilən xidmətlərin, turizm məhsullarının orjinallığı, fərqliliyi və unikallığıdır. Bu baxımdan Qarabağ regionunun kifayət qədər yüksək potensialı var. Dünyada tanınan Qarabağ xalçalarına toxunmaq, sənət nümunələri ilə tanış olmaq, Qarabağ bazarında əl əməyinə əsaslanan suvenir istehsalını və satışını təmin etmək, qidalanma müəssisələrində regionun özünəməxsus şirniyyat və yeməklərini, müxtəlif şərbətlərini turistlərə təqdim etmək, Qarabağ atları ilə qısa məsafələrə səfər təşkil etmək, turistlərə milli çövkən oyunu oynamaq imkanı yaratmaq, musiqi, mədəniyyət axşamlarında qonaqların iştirakını təmin etmək regionun unikallığını turistlərə təqdim etmək baxımından əlverişli hesab edilir.

6. *Atmosfer (ambience/atmosphore)*: Destinasiyanın inkişafı baxımından əlverişli mühitin olması, sosial-mədəni, iqtisadi və fiziki mühitin qarşılıqlı əlaqəsinin düzgün qurulması zəruridir. Burada ətraf mühitə qayğıkeş münasibət, dayanıqlı inkişaf, yerli əhalinin turizmdən faydalanması, turizm fəaliyyətinə cəlb edilməsi, əhalinin turistlərə münasibəti, sahibkarlar üçün yaradılan iqtisadi şərait, dövlət dəstək tədbirləri və s. məsələlər əsasən nəzərdə tutulur. Qarabağ regionunun işğal olunmuş ərazilərindən köçürülmüş əhalinin böyük qismi uzun müddət Bakı və ətraf ərazilərdə yaşadığı və sahibkarlıq fəaliyyətinə cəlb edildiyi üçün onların turizm fəaliyyətinə və kiçik sahibkarlığa cəlb edilməsi daha faydalıdır. Belə ki, şərtlərin sadələşdirilməsi, müəyyən qrup vergi, kredit güzəştlərinin tətbiqi qısa müddətdə bölgədə turizmin inkişafını dəstəkləyən əlverişli mədəni-iqtisadi mühitin formalaşmasına zəmin yaradacaqdır.

7. *Tur paketlərin mövcudluğu (availability package):*Tur paket dedikdə, turistlərə turizm destinasiyasında təqdim olunan kompleks xidmətlər nəzərdə tutulur. Qarabağın turizm destinasiyası kimi

formalaşması və inkişafı üçün müxtəlif seqmentasiya qrupları üçün fərqli, keyfiyyətli turizm xidmətlərinin göstərilməsi zəruridir. Bu da ilk növbədə regionda çoxsayılı mehmanxanaların, qidalanma və əyləncə müəssisələrinin yaradılması, nəqliyyatın inkişafı, müxtəlif turizm növlərinin formalaşdırılması, bələdçi xidmətlərinin təmini və s. məsələlərlə birbaşa bağlıdır. Qarabağ regionunun mərkəzi Şuşa şəhərində yenidən qurma işlərindən sonra ilk fəaliyyətə başlayan mehmanxana “Xarıbülbül” mehmanxanasıdır. 2021-ci ildə Qarabağ iqtisadi rayonu ərazisində 11 mehmanxana və mehmanxana tipli yerləşdirmə müəssisəsi fəaliyyət göstərirdi ki, onlardan 3-ü Şuşa, 2-si Tərtər, 3-ü Ağcabədi, 2-si Bərdə və 1-i isə Füzuli rayonunda yerləşirdi (Azərbaycanda turizm, 2021:46). Mövcud vəziyyətin təhlili göstərir ki, Qarabağın turizm destinasiyası kimi formalaşması turizm infrastrukturunun genişləndirilməsi, bərpa prosesi ilə birbaşa əlaqədardır.

## Sonuç

Beləliklə, Qarabağ regionunun mədəni turizm resurslarının təhlili və qiymətləndirilməsi göstərir ki, regionda aparılan bərpa işləri, dövlət dəstək tədbirləri, regional turizm siyasətinin təşkili Qarabağın mədəni turizm destinasiyasına çevrilməsi baxımından zəruridir. Həmçinin, Qarabağın turizm destinasiyasına çevrilməsinin təşviqi, müxtəlif turizm növlərinin inkişaf etdirilməsi, “Ağıllı kənd” layihəsinin həyata keçirilməsi, regionda beynəlxalq hava limanlarının tikintisi, Şuşa və ətraf ərazilərdə aparılan yenidən qurma işləri, Şuşada “Qarabağ” otelinin açılışı, 150 nömrədən ibarət olacaq “Otel və Konfrans Mərkəzi”nin əsasının qoyulması, “Xarı Bülbül” otelinin yenidən qurulması, “Qafqaz Albaniyası turizm marşurutu”nun hazırlanması Qarabağ regionunda turizmin inkişafı üçün ilkin mərhələdə atılmış mühüm addımlardır.

Tədqiqatçılar hesab edir ki, Qarabağ və Şərqi Zəngəzurun turizm potensialından istifadə yaxın 5 il ərzində regiona kifayət qədər çox turist axınına səbəb olacaq. Belə ki, mineral bulaqlar, yüksək dağlıq ərazilər, zəngin meşə örtüyü, biomüxtəliflik regionda qış-yay, müalicə-sağlamlıq turizm komplekslərinin, həmçinin ekoturizm, idman turizmi, kənd turizmi, aqroturizm, mədəni turizmin inkişafı üçün zəngin təbii resurs bazasıdır. Əksər tarixi-memarlıq nümunələri dağıdılsa, mənşəyi dəyişdirilməyə çalışılsa da qalaların, körpülərin, məbədlərin, məscidlərin tarixi üslubda yenidən işlənməsi, regionun qədim arxitekturasının bərpası tarixi-mədəni irsin qorunması və turistlərə təqdim olunması baxımından olduqca vacibdir. Bir çox tədqiqatçılar həmçinin düzgün olaraq Qarabağda erməni vandalizmini dünyaya, geniş ictimaiyyətə çatdırmaq üçün “dark turizmin” inkişaf etdirilməsinin zəruriliyini vurğulayır. Qeyd olunanlarla yanaşı regionun mədəni turizm destinasiyası kimi formalaşması baxımından aşağıdakı təkliflər verilmişdir:

- Qarabağ regionunda tarixi-memarlıq abidələrinin bərpası və tədqiqi, açıq səma altında muzeylərin və sənətkarlıq evlərinin təşkili, mədəniyyətin müxtəlif sahələri ilə bağlı daimi tədbirlərin keçirilməsi, regionun tanıtımı, milli mətbəxin düzgün təqdimatı mədəni turizm destinasiyasının formalaşmasında zərurdir.
- Regionda investisiya layihələrinin genişləndirilməsi, “sığorta fond”ları təşkil etməklə, investisiyalara büdcə hesabına dövlət təminatı verilməsi məqsədəuyğundur. Çünki, turizm sektorunda investisiya qoyuluşları kapitalın qaytarılması və səmərəliliyin olduqca çevik və cəlbedici olması ilə seçilir.
- Xarici ölkələrlə əməkdaşlıq etməklə, Füzuli və Zəngilanda fəaliyyət göstərən Beynəlxalq Hava Limanına nisbətən ucuz aviabilet satışının təmini regionun mədəni turizm sektorunun inkişafı baxımından faydalı ola bilər.
- Qarabağ bölgəsində turizm sahəsində fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinə torpaq yerlərinin ayrılması, müəyyən müddət differensial vergi sisteminin tətbiqi və digər dövlət dəstək tədbirlərinin verilməsi Qarabağ turizm regionunu Azərbaycanın bir brend destinasiyası kimi dünya turizm bazarında tanıtmaq imkanı yaradar.

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun formalaşdırılması, turizm klasterlərinin yaradılması hərtərəfli inkişafın təmini baxımından məqsədəuyğun hesab edilə bilər.

## Kaynakça

Azərbaycan Respublikasında iqtisadi rayonların yei bölüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 07 iyul 2021 (https://president.az/az/articles)

Azərbaycanda turizm 2022. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı 2022

Azərbaycan Xalçaları. Qarabağ qrupu. Bakı 2011

Qarabağın ermənilər yaşamış olduğu ərazilərində Azərbaycanın dağıntılara və saxtalaşdırmalara məruz qalmış abidələri. Tətbiqi Tədqiqatlar Fondu. Bakı 2022

E. Sadıqov. Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri. UNEC Ekspert, Bakı, №1, 2021

C. Hüseyn. Yeni Qarabağnamə. Bakı 2021

F. İsmayılov. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı, 2016

N.Məmmədov. Qarabağda sənətkarlıq. Tarix və onun problemləri, Bakı, №3, 2014

N.Məmmədov. İşğal altındakı tarixi dini abidələrimiz. Bakı, 2015

M. Paşayeva. Qarabağın və Şərqi Zəngəzurun alban abidələri. Bakı, 2022

https://www.virtualkarabakh.az/

https://shusha.preslib.az/